# Medianın alovu əbədidir, sönməzdir




*İlk dəfə jurnalist olmaq istədiyimi deyəndə heç kim bu arzunu ciddi qəbul etmədi. Böyüklər düşündülər ki, bu da bir uşaq xəyalıdır, həkim, müəllim, pilot olmaq istəyənlər kimi keçib gedəcək. Amma keçmədi. İçimdə boy atdı, böyüdü, məni də özü ilə birgə böyütdü. Uşaq idim, buludlara sual verən, xəbər çatdıran adam olmaq istəyirdim. Hər gün məktəb yolunda bir az daha böyüyən xəyalım vardı, bir gün mənim də yazılarım dərc olunacaq. Söz mənim üçün heç vaxt sadəcə dilin materialı olmadı. Yazmaq, danışmaq üsulum idi. Bir uşaq kimi çox da danışmazdım. Amma yazanda sanki mən deyildim, içimdə bir söz adamı var idi. Jurnalist olmaq istəyəndə dünya təsəvvürümdə mənim boyum qədər idi. Vaxt keçdikcə bu peşəyə qarşı məsuliyyətim artdı. Zaman keçdikcə jurnalistika istəkdən inada çevrildi. Oxuduğum hər kitabda, izlədiyim hər verilişdə, eşitdiyim hər cümlədə "bu barədə necə yaza bilərəm?" sualı öz yerini tutdu. Uşaq heyranlığım yerini gənc məsuliyyətinə verdi. Artıq sadəcə yazmaq deyil, doğru yazmaq, dəqiq yazmaq, nəticə üçün yazmaq istəyirdim. Uşaqlıqda nə qədər sadəlövh idimsə, böyüdükcə bir o qədər qəliz dünyada sadə həqiqəti axtarmaq ehtiyacı hiss edirdim. Elə o vaxt anladım ki, jurnalistika susmaq istəməyənlərin sənətidir. Bu peşə bəzən qorxulu, bəzən təşəkkürsüz, bəzən tənha yoldur. Amma sözün vicdanı varsa, jurnalistin yolunda işıq həmişə var. Jurnalistika bu gün mənim üçün peşədən əlavə, danışma üsulum, susmaqdan imtina etməyim, həqiqətlə nəfəs almağımdır. 22 iyul Azərbaycan mətbuatının doğum günüdür. Mənim üçünsə bu gün sözə inamın, həqiqətə sədaqətin, balaca qızın içində böyüyən qələmin bayramıdır. Çünki bilirəm ki, mətbuat günü yalnız Həsən bəy Zərdabinin "Əkinçi"si ilə başlanan tarix deyil. Bu, həm də hər bir jurnalistin içində yazmaq istəyən uşaqlıqla başlayan özəl tarixdir.*

Mətbuat tariximizə nəzər salmaq bir az da millətimizin danışmağa cəsarət etdiyi anları axtarmaq kimidir. Çünki söz bizə hər zaman asan verilmədi. Bəzən qadağan edildi, bəzən susduruldu, bəzən təhrif olundu. Amma nə baş versə də, xalqın sözə olan ehtiyacı heç vaxt azalmadı. Elə bu ehtiyacın özü idi ki, 22 iyul 1875-ci ildə Azərbaycanın ilk qəzetini doğurdu, "Əkinçi"ni. Həsən bəy Zərdabinin bu addımı xalqın susqunluğunu qırmaq cəhdi idi. O dövrdə "Əkinçi" adlı qəzetin çıxması, bəlkə də, ilk baxışdan kənd təsərrüfatı ilə bağlı təşəbbüs kimi görünə bilərdi. Amma bu ad həm də xalqın şüuruna səpiləcək ideyaların, maarifin, tərəqqi toxumlarının başlanğıcı idi. Zərdabi bir mətbuat orqanı yaratmırdı, o, düşünməyi öyrədirdi. O, qəzetlə cəmiyyətə məlumat yox, maarif ziyası vermək istəyirdi. Oxucu deyil, düşünən vətəndaş formalaşdırmaq arzusu idi onun içində. Həmin dövr üçün isə bu, qeyd-şərtsiz qəhrəmanlıq idi. Zərdabi yazırdı ki, qəzet xalqın aynasıdır. Nə qədər təmiz yazılırsa, o qədər aydın görünür içimiz. Bu cümlədəki sadəlik arxasında qaynar cəsarət yatırdı. Çünki həmin dövrün Qafqazında ana dilində qəzet çıxarmaq, ictimai şüura təsir etmək istəyini dilə gətirmək, üstəlik çar senzurasının gözləri önündə təhlükə ilə oynamaq demək idi. Amma Zərdabi geri addım atmadı. O, sözü yalnız fikrin daşıyıcısı deyil, əqidənin qalxanı sayırdı. Bu inamla da 56 nömrəlik "Əkinçi" mətbuat tariximizin ilk parlaq səhifəsini yazdı. Sonradan "Əkinçi" qapadıldı, amma ardınca "Ziya", "Zənbur", "Şərqi-rus", "Kaspi" kimi qəzetlər gəldi. "Molla Nəsrəddin" isə cəhalətə və geriliyə qarşı yumorla döyüşdü. Satira bizim mətbuat tariximizdə yalnız gülmək üçün yox, həqiqəti deyə bilməyin alternativ yolu oldu. Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi qələm sahibləri bu illərdə milli jurnalistikanın təməlini qoydu. Həmin dövrlərdə mətbuat söz azadlığı uğrunda mübarizənin canlı qalası idi. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ayda isə mətbuat sahəsində böyük canlanma yaşandı. "Azərbaycan", "İstiqlal", "Şərq", "İqbal" və başqa qəzetlər Cümhuriyyətin ideoloji dayaqlarını cəmiyyətə çatdırdı. Mətbuat artıq təkcə maarifçilik deyil, həm də dövlət quruculuğu missiyasını daşıyırdı. Redaksiyalar sanki "kiçik parlament" idi, azad fikrin, müzakirənin, fərqli baxışların məkanı. Qadın mətbuatı da bu dövrdə yaranmağa başladı. "İşıq" jurnalı, qadın yazarların yazıları azadlıq dövrünün parlaq örnəkləridir. XX əsrin ilk yarısında Azərbaycanda da siyasi təlatümlər, bolşevik hərəkatı və sovet senzurası başladı. Mətbuat bir müddətlik hakimiyyətin ruporuna çevrildi. Qəzetlərdə yazılanlar deyilənlərdən yox, deyilməli olanlardan ibarət idi. Sətiraltı danışmaq, məcazla fikrini ötürmək, şifrəli yazmaq jurnalistin yaşamaq taktikasının bir hissəsi oldu. Amma bu dövrdə belə, jurnalistika tam susmadı. "Kommunist", "Bakinskiy raboçiy", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" kimi nəşrlər arasında gizlənmiş cəsarətli qələmlər vardı. Onlar oxucu ilə gizli dialoqa girirdilər. 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra mətbuat sahəsində partlayış yaşandı. Senzura ləğv olundu, çoxsaylı qəzet və jurnallar meydana çıxdı. "525-ci qəzet", "Ayna-Zerkalo" və digər nəşrlər fərqli baxış bucaqları ilə cəmiyyətin gündəmini formalaşdırdı. Lakin bu dövr həm də qeyri-sabitliklə, informasiya xaosu və iqtisadi çətinliklərlə xarakterizə olunurdu. Yenə də mətbuat azadlığı və jurnalist təşəbbüskarlığı bu illərdə möhkəm təməl qazandı.

Azərbaycan mətbuatı ictimaiyyətə yeni nəfəs gətirir, dünyanı daha aydın, rəngarəng göstərir. Texnologiyanın inkişafı ilə media sahəsi də sürətlə dəyişir. Müasir jurnalistika artıq yalnız qəzet səhifələrində, ya da televiziya studiyalarında məhdudlaşmır. İnternet platformaları, sosial şəbəkələr və interaktiv media sayəsində xəbərlər saniyələr ərzində milyonlara çatır. Müxtəlif onlayn xəbər saytları, video reportajlar, podkastlar, sosial media kanalları jurnalistikanın gücü və təsir dairəsini genişləndirir. Bu isə oxucu ilə jurnalist arasındakı əlaqəni daha sıx, daha interaktiv edir. Sahəsinin vurğunu olan jurnalist bilir ki, azad sözün, obyektivliyin və etik prinsiplərin daşıyıcısıdır. Bugünün jurnalistikası hərtərəfli və çoxşaxəlidir. Reportajdan analitik yazılara, müsahibədən sənədli filmə, xəbərdən sosial layihələrə qədər geniş palitra mövcuddur. Bu müxtəliflik medianın cəmiyyətin bütün təbəqələrinə, bütün yaş qruplarına, fərqli zövqlərə uyğunlaşmasına imkan verir. İctimai mövzulardan tutmuş mədəniyyətə, iqtisadiyyatdan elmi yeniliklərə qədər hər sahədə peşəkar səviyyədə informasiya və analitika təqdim olunur. Mətbuat yalnız məlumat ötürən deyil, həm də ictimaiyyətlə davamlı dialoq qurandır. Bu gün jurnalistlər oxucu və tamaşaçılarla daha yaxın əlaqə saxlayır, onların fikirlərini dinləyir, cəmiyyətin ehtiyaclarına uyğun mövzulara daha çox yer verir. Sosial media platformaları bu qarşılıqlı əlaqəni gücləndirir, mediaya insanların səsini daha güclü çatdırmaq imkanı yaradır. Bu da medianın cəmiyyət üçün daha faydalı və əhəmiyyətli olmasına səbəb olur. Aidiyyəti qurumlar medianın keyfiyyətinin artırılması üçün mütəmadi olaraq peşəkar təlimlər, seminarlar və beynəlxalq layihələr təşkil edirlər. Bu tədbirlər jurnalistlərin bilik və bacarıqlarını artırır, onların qlobal standartlara uyğun fəaliyyət göstərməsinə şərait yaradır. Bu da ölkə mətbuatının dünya medianın səviyyəsinə çatmasına, həmçinin öz unikallığını qoruyub saxlamasına imkan verir.

Azərbaycan mətbuatının son illərdəki ən şərəfli səhifələrindən biri, bəlkə də, ən parlaq olanı 2020-ci ilin payızında yazıldı. O günlərdə yalnız ön cəbhə yox, qələmlə döyüşən mətbuat cəbhəsi də vardı. Kimi səngərdə əsgər kimi savaşdı, kimi isə kamera, mikrofon və fotoaparatla o səngərlərin izini zamanın yaddaşına həkk etdi. 44 gün ərzində Azərbaycan mətbuatı dövlətin səsini, xalqın iradəsini, şəhidlərin əmanətini, vətənin haqqını dünyaya çatdırdı. Hər şəhidin, hər azad edilən kəndin adı, hər sevinc göz yaşı qəzetlərin manşetlərində, saytların başlıqlarında, sosial medianın ən üstdə dayanan statuslarında idi. Biz nəyi necə yazacağımızı yaxşı bilirdik, çünki xalqın ürəyi ilə yazırdıq. Bütün dünya dezinformasiya yayarkən mətbuatımız doğruların qalxanı, haqqın səsi oldu. Ermənistanın saxta videolarına, quraşdırılmış "faciə" kadrlarına, beynəlxalq medianın qərəzinə qarşı mətbuatımız əsgər kimi direniş göstərdi. Qarabağın hansı kəndində hansı bayraq qaldırıldısa, o görüntülər mətbuatın obyektivində əbədiləşdi. Hər reportaj, hər canlı yayım, hər şəhid haqqında yazılmış yazı yaddaşa, tarixə çevrildi. O dövrdə yalnız dövlət mediası deyil, özəl media qurumları da həmrəyliklə çalışdı. Müxbirlər cəbhəyanı bölgələrdə can bahasına çəkilişlər apardılar.

Azərbaycan mətbuatı artıq təkcə daxili informasiya mənbəyi deyil, həm də regionda və qlobal mediada hadisələrin etibarlı izah mənbəyidir. Xüsusən də 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan jurnalistikasının operativliyi, dəqiqliyi və faktlara əsaslanan mövqeyi xarici medianın da diqqətini çəkdi. "BBC", "Al Jazeera", "TRT World", "Euronews" kimi aparıcı media orqanları tez-tez Azərbaycan Prezidentinin çıxışlarına, Müdafiə Nazirliyinin brifinqlərinə və rəsmi mətbuatın yaydığı informasiyalara istinad etməklə yanaşı, Azərbaycan jurnalistlərinin hazırladıqları reportajlara da yer verdilər. Bu, Azərbaycan mətbuatının regional hadisələrin təhlilində söz sahibi olduğunu bir daha sübut etdi. 2020-ci ilin oktyabrında "The Guardian" qəzetində yayımlanan məqalədə Azərbaycanın informasiya strategiyasının təlimatlı, dəqiq və səlis olduğu vurğulanırdı. "Le Monde" qəzetində Qarabağda müharibə zamanı fəaliyyət göstərən azərbaycanlı müxbirlərin peşəkarlığı və təhlükə zonasındakı fəaliyyətinə diqqət çəkilirdi. "Deutsche Welle" isə Azərbaycan jurnalistlərinin həm cəbhədə, həm də diplomatik arenada informasiya təminatında fəal iştirakını vəziyyətə nəzarət edən vətəndaş jurnalistikası kimi qiymətləndirmişdi.

Azərbaycan mediası uzun və zəngin tarixə malik olmaqla yanaşı, müasir dövrdə sürətlə inkişaf edən, qanunvericilik bazası ilə tənzimlənən dinamik sahədir. Media mühiti, jurnalistlərin fəaliyyəti, informasiya hüquqları və məsuliyyətləri əsasən qanunlarla qorunur və tənzimlənir. Bu hüquqi zəmin medianın sağlam inkişafı və jurnalistikanın peşəkarlıq standartlarının təminatında mühüm rol oynayır. Azərbaycanın kütləvi informasiya vasitələrinin fəaliyyəti "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunla tənzimlənir. Bu qanun medianın təşkili, redaktə olunması, müxbirlərin hüquq və vəzifələri, jurnalist etikası kimi məsələləri əhatə edir. Qanun jurnalistlərin peşə fəaliyyətində azadlıqla bərabər məsuliyyətlərini də müəyyən edir. "Azad informasiya haqqında" qanun və digər normativ aktlar medianın şəffaf fəaliyyətini təmin edir, vətəndaşların informasiya əldə etmək hüququnu qoruyur. Bu qanunlar jurnalistlərin rəsmi mənbələrə çıxışını asanlaşdırır, dövlət orqanlarının fəaliyyətinin ictimai nəzarət altında saxlanmasına imkan yaradır. Son illərdə rəqəmsal media sürətlə inkişaf edir və bu, qanunvericiliyin daim yenilənməsini tələb edir.

Müasir mətbuatın ən böyük sərvəti isə sözsüz ki, onun gənc, enerjili və yaradıcı nəsli ilə bağlıdır. Biz gənclər yeni fikirlərlə, innovativ yanaşmalarla media məkanına daxil olur, klassik jurnalistikanın ənənələrini rəqəmsal çağın tələbləri ilə birləşdiririk. Yalnız informasiya ötürmür, həm də onu incə zövqlə, yüksək peşəkarlıqla təqdim edir, oxucunu düşündürür, duyğulandırır, dünyagörüşünü genişləndiririk. Azərbaycan mətbuatının gələcəyi bu baxımdan ümidvericidir. Yeni nəsil jurnalistlər, inkişaf edən texnologiyalar, peşəkar yanaşmalar medianın daha da güclənəcəyini və cəmiyyət üçün daha faydalı olacağını göstərir. Hər gün medianın xəritəsində yeni layihələr, ideyalar ortaya çıxır. Bu da Azərbaycan jurnalistikasının sözün həqiqi gücünü dünyaya daha qətiyyətlə çatdıracağına işarədir. Jurnalistika mövqedir, məsuliyyətdir, missiyadır. 150 il əvvəl səsləndirdiyin "xalq üçün yazmaq" çağırışı bu gün ruhumuza hopub, Həsən bəy. O zaman qəzet çapa vermək üçün çap maşınlarının yoxluğu ilə üz-üzə idin, bizsə bu gün informasiya selində həqiqəti qorumaq uğrunda mübarizə aparırıq. Amma yolumuz birdir - xalqa xidmət.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**